**“Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

# FƏRMANI

“Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 520-IIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

**1.1.** qüvvədə olan qanunvericilik aktlarının “Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** “Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri öz səlahiyyətləri daxilində həll etsin.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 11 mart 2008-ci il**